PAŞA Bank

# Rüblük İqtisadi İcmal

2015-ci il

Fevral 2016

# Rüblük İqtisadi İcmal

*2015-ci ildə qlobal və regional səviyyədə gedən mürəkkəb iqtisadi proseslər dünya iqtisadiyyatına sıx inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmişdir. Neftin qiymətinin kəskin aşağı düşməsi xarici valyuta gəlirlərinin və tədiyyə balansının profisitinin əhəmiyyətli azalmasına gətirib çıxarmışdır. Bununla əlaqədar milli iqtisadiyyatın dayanıqlığının gücləndirilməsi çağırışları daha da aktuallaşmış, bu çağırışlara uyğun olaraq büdcə-vergi və pul-məzənnə siyasətində adekvat manevrlər həyata keçirilmişdir. Xarici iqtisadi şokların güclənməsini nəzərə alaraq tədiyyə balansının tarazlaşdırılması, ölkənin valyuta ehtiyatlarının kritik səviyyədə qorunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin olunması məqsədilə Mərkəzi Bank "üzən məzənnə rejimi" nə keçid barədə qərar qəbul etmişdir.*

**İqtisadi aktivlik.** 2015-ci ildə Ümumi Daxili Məhsul (ÜDM) istehsalının həcmi ötən illə müqayisədə 1.1 faiz artaraq 54.4 milyard manata çatmışdır. 2014-cü illə müqayisədə

**Qrafik 1.** İqtisadi artım, %




*Mənbə: Dövlət Statistika Komitəsi*

əlavə dəyər qeyri-neft sektorunda 1.1 faiz artmış, neft-qaz sektorunda isə 0.6 faizlik artım müşahidə olunmuşdur. Neft-qaz sektorunda xam neft hasilatı 0.7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 5.5 faiz artmışdır. Faktiki qiymətlərlə qeyri-neft sektorunun ÜDM-da xüsusi çəkisi 2015-ci ildə 63.5 faiz təşkil etmişdir ki, bu da keçən illə müqayisədə 7.5 faiz bəndi çoxdur. Qeyri-neft iqtisadiyyatı sahələrindən daha çox artım turizm sektorunda qeydə alınmışdır (14.0 faiz). Tikinti sektorunda isə əlavə dəyər 13.4 faiz azalmışdır. Qeyri-neft emalı sənayesində qida məhsullarının istehsalı 2.9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 3.0 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 67.3 faiz, kimya sənayesi məhsullarının istehsalı 43.2 faiz, poliqrafiya məhsullarının istehsalı 86.7 faiz, tikinti materiallarının istehsalı 6.3 faiz, hazır metal

**Qrafik 2.** Qeyri-neft sahələrində iqtisadi artım, %




*Mənbə: Dövlət Statistika Komitəsi*

məhsullarının istehsalı 54.1 faiz, kompyuter, elektron və optik məhsulların istehsalı 2.1 dəfə, elektrik avadanlıqlarının istehsalı 1.8 faiz, mebel istehsalı 10.1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 2.7 dəfə artmış, toxuculuq məhsullarının istehsalı 55.2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 21.4 faiz, geyim istehsalı 44.2 faiz, içkilərin istehsalı isə 11.2 faiz azalmışdır.

**Dövlət büdcəsi və investisiya qoyuluşları.** 2015-ci ildə ötən illə müqayisədə büdcə gəlirləri 6.8 faiz, büdcə xərcləri isə 4.9 faiz azalmış, müvafiq olaraq 17.2 və 17.8 milyard manat təşkil etmişdir. Nəticədə büdcədə 634 milyon manata yaxın kəsir yaranmışdır. Dövlət Neft Fondundan büdcəyə transfertlərin (ümumi büdcə gəlirlərinin 47 faizi) 13 faiz azalması büdcə gəlirlərinin azalmasının əsas səbəbi olmuşdur. 2015-ci ildə dövlət büdcəsindən dövlət əsaslı investisiya qoyuluşu xərclərinə 5.0 milyard manat vəsait yönəldilmişdir. Bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 28.1 faiz olmuşdur. 2015-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişaf üçün bütün maliyyə mənbələrindən əsas kapitala 16.0 milyard manata yaxın vəsait (ötən ilə nəzərən 11.1 faiz azalma) qoyulmuşdur ki, onun da 20 faizi büdcə və büdcədənkənar fondların vəsaitləri, 67 faizi müəssisələrin öz vəsaitləri, 13 faizi isə digər mənbələr hesabına maliyyələşdirilmişdir. Fiskal konsolidasiyanın davam etməsi obyektiv olaraq ümumi investisiya qoyuluşlarının maliyyələşmə mənbələrində büdcə vəsaitlərinin payının 18 faiz bəndi

**Qrafik 3.** Dövlət büdcəsi, milyard AZN




*Mənbə: Maliyyə Nazirliyi*

azalmasına səbəb olmuşdur. Ümumi investisiyaların 45 faizi neft bölməsinə, 55 faizi isə qeyri-neft bölməsinə yönəldilmişdir. İnvestisiya qoyuluşlarının 44 faizi xarici, 56 faizi isə daxili investisiyaların hesabına reallaşmışdır. 2015-ci ildə ümumi investisiyaların 7.7 faizi qeyri-neft sənaye sektorunun inkişafına, 13.4 faizi tikintiyə (o cümlədən 6.5 faiz mənzil tikintisinə[1]), 13.7 faizi nəqliyyat infrastrukturuna, 4.0 faizi dövlət idarəetməsi  və müdafiəyə, 2.2 faizi İKT sektoruna, 2.9 faizi turizm sektoruna, 2.7 faizi səhiyyə və təhsilə sahəsinə ayrılmışdır. 01 yanvar 2016-cı il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6.9 milyard ABŞ dolları (10.7 milyard manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 19.8 faiz təşkil etmişdir. Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi,

[1] 2015-ci ildə ümumi sahəsi 1.9 milyon kv. metr olan yeni yaşayış evləri tikilib istifadəyə verilmişdir

infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə istifadə edilmişdir. Borc vəsaitlərinin 58.6 faizi hesabat dövründən sonra 10 ilə qədər olan müddətdə, 32.9 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 8.5 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır. Xarici borc üzrə alınan kreditlərin valyuta tərkibində ABŞ dolları böyük paya malik olmuşdur (66.3 faiz).

**Məşğulluq və inflyasiya.** 2016-cı il yanvarın 1-i vəziyyətinə iqtisadi fəal əhalinin sayı 4915.3 min nəfər olmuş, onlardan 4671.6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir. Muzdla çalışan işçilərin sayı 1504.0 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 879.4 min nəfər, qeyri-dövlət sektorunda isə 624.6 min nəfər təşkil etmişdir. 2015-ci il ərzində müəssisə və təşkilatların sayı 6.1 faiz artaraq, 2016-cı il yanvarın 1-nə 100325 (84.2 faizi kommersiya müəssisə və təşkilatları) olmuşdur. Artım əsasən iqtisadiyyatın "Turistlərin yerləşdirilməsi və ictimai iaşə", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar", "İnformasiya və rabitə", "Peşə, elmi və texniki fəaliyyət" və "Təhsil" sahələrində daha nəzərəçarpacaq dərəcədə olmuşdur. 2016-cı il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı isə 577 minə yaxınlaşmışdır. Fərdi sahibkarların əsas hissəsi Bakıda (33.7%), Aran (19.8%), Gəncə-Qazax (12.9%) və Lənkəran (7.4%) iqtisadi rayonlarında qeydiyyata alınmışdır. 2015-ci ildə ölkə əhalisinin gəlirləri ötən illə müqayisədə 5.7 faiz artaraq 41.7 milyard manata çatmış, onun əhalinin hər nəfərə düşən həcmi isə 4.5 faiz artaraq ölkənin istehlak bazarında orta qiymət artımını (4 faiz) 0.5 faiz bəndi üstələmişdir. İl ərzində gəlirlərin 72.1 faizi son istehlak xərclərinə, 9.1 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının,

**Qrafik 4.** İnflyasiya (İstehlakçı Qiymətləri İndeksi), %




*Mənbə: Dövlət Statistika Komitəsi*

2.9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 15.9 faizi isə yığıma yönəldilmişdir. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı ötən illə müqayisədə 4.5 faiz artaraq 462.0 manat təşkil etmişdir. Əmək haqqı neft-qaz sektorunda 2105.5 manat, qeyri neft-qaz sektorunda 422.1 manat olmuşdur. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 357.3 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 608.2 manat təşkil etmişdir. Əhali

gəlirlərinin artması fonunda istehlak mallarının qiymətləri və xidmət tariflərində ilin əvvəlinə nəzərən 7.7 faizlik qiymət artımı qeydə alınmışdır. İstehlak səbətinin daxilinə baxdıqda, ayrı-ayrı məhsul qruplarında da qiymət artımları müşahidə olunmuşdur. Belə ki, 2015-ci ilin sonunda illik inflyasiya ərzaq məhsullarında 9.4 faiz, qeyri-ərzaq məhsullarında 11.0 faiz, xidmət tariflərində isə 2.3 faiz təşkil etmişdir.

**Xarici ticarət və məzənnə.** 2015-ci ildə ölkədən ixrac olunan məhsulların dəyəri keçən ilin müvafiq dövrü ilə müqayisədə 47.7 faiz azalmış və 11.4 milyard dollar təşkil etmişdir. Bu dövrdə Azərbaycanın əsas ixrac məhsulu olan Azeri Light neftinin ortalama qiyməti 53.8 dollar təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 1.9 dəfə azdır. Nəticədə azalan neft qiymətləri fonunda xam neftin ixracı 52 faiz və ya nominal olaraq 9.5 milyard dollar azalmışdır. Eyni zamanda qeyri-neft məhsullarının ixracı da 8.5 faiz azalmış, o cümlədən alüminium və ondan hazırlanan məmulatların ixracı 0.7 faiz, şəkər 4.1 faiz, plastmas və ondan hazırlanan məmulatlar 28.4 faiz, çay 37.6 faiz, bitki yağları 19.4 faiz, spirtli və spirtsiz içkilər 19 faiz, qara metallardan hazırlanan məmulatlar 20.5 faiz, dəri ixracı isə 49.4 faiz azalmışdır, kimya məhsullarının ixracı 5.1 faiz, meyvə-tərəvəz məhsullarının ixracı isə 7.2 faiz artmışdır. Ümumilikdə qeyri-neft məhsullarının ixracı ümumi ixracın 14.1 faizini təşkil etmişdir. 2015-ci il ərzində ölkəyə idxal olunan məhsulların dəyəri 0.4 faiz artmış və 9.2 milyard dollar təşkil etmişdir. İdxalda ayrı-ayrı məhsullardan

**Qrafik 5.** Xarici ticarət, milyard $




*Mənbə: Dövlət Gömrük Komitəsi*

yeyinti məhsullarının idxalı (ümumi idxalın 10.6 faizi) 7.8 faiz, maşın və avadanlıqlar (ümumi idxalın 26.7 faizi) 4.6 faiz azalmışdır, qara metallar və onlardan hazırlanan məmulatların idxalı (ümumi idxalın 17.2 faizi) 56.2 faiz, nəqliyyat vasitələri və ehtiyat hissələrinin idxalı (ümumi idxalın 13.2 faizi) isə 44.6 faiz artmışdır. Qeyd edək ki, idxal olunan nəqliyyat vasitələrinin dəyərinin əhəmiyyətli şəkildə artmasına baxmayaraq onların say etibarilə həcmi 2 dəfədən çox azalmışdır. Bu isə "Avro-4" ekoloji standartının tələblərinə cavab verməyən

**Qrafik 6.** Xarici valyutaların manata qarşı məzənnəsi, "+" xarici valyutanın möhkəmlənməsi (ilin əvvəlindən)




*Mənbə: Mərkəzi Bank*

avtonəqliyyat vasitələrinin ölkəyə idxalının qadağan olunması və avtomobil kreditlərinin 40 faizdən çox azalması ilə əlaqədardır. Bütövlükdə xarici ticarətdə 2.2 milyard dollardan çox profisit yaranmışdır ki, bu da ötən illə müqayisədə 5.7 dəfə azdır. Hesabat dövründə bir sıra xarici ticarət tərəfdaşlarının milli valyutaları manata nəzərən möhkəm olmuşdur ki, bu da ölkənin xarici ticarətdə rəqabət üstünlüyünün əsas şərtlərindən biridir. Bu dövrdə baş verən əsas iqtisadi fenomenlərdən biri də manatın məzənnəsi ilə bağlı Mərkəzi Bank tərəfindən atılan bir sıra monetar addımlar olmuşdur. Belə ki, Mərkəzi Bank cari ilin 16 fevral tarixindən etibarən məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsindən valyuta səbəti dəyərinin hədəflənməsinə keçid barədə qərar qəbul etmişdir. Bundan başqa, milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək və bu əsasda tədiyyə balansının strateji dayanıqlığını təmin etmək məqsədilə cari ilin 21 fevral tarixindən etibarən Mərkəzi Bank 1 ABŞ dollarının rəsmi məzənnəsini 34 faiz bahalaşdıraraq 1.05 manat dəyərində müəyyən etmişdir. Lakin, cari ilin sonlarına doğru neftin qiymətinin sürətlə aşağı düşməsi valyuta bazarına və məzənnəyə təzyiqi yenidən artırmışdır. Uzunmüddətli xarakter daşıyan xarici iqtisadi şokların güclənməsini nəzərə alaraq, tədiyyə balansının tarazlaşdırılması, ölkənin valyuta ehtiyatlarının kritik səviyyədə qorunması, milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin təmin olunması məqsədilə Mərkəzi Bank 21 dekabr 2015-ci il tarixində üzən məzənnə rejiminə keçilməsi barədə qərar qəbul etmişdir. Beləliklə, qərardan sonra 1 ABŞ dollarının rəsmi məzənnəsi 47.6 faiz bahalaşaraq 1.55 manat dəyərində qərarlaşmışdır. Bu qərarın nəticəsi kimi manatın məzənnəsi başlıca olaraq valyuta

**Qrafik 7.** Mərkəzi Bankın xarici valyuta ehtiyatları və neft qiymətləri




*Mənbə: Mərkəzi Bank*

bazarında tələb və təklifin nisbətini müəyyən edən fundamental amillərin təsirinə uyğun olaraq formalaşacaqdır. Mərkəzi Bankın valyuta bazarında iştirakı isə bu rejimə uyğun həyata keçiriləcəyi planlaşdırılmışdır. Ümumilikdə, xarici valyuta bazarında tələb və təklifin balanslaşdırılması istiqamətində Mərkəzi Bank 2015-ci ildə aktiv iştirak etmiş və il ərzində bazara 8.7 milyard dollara yaxın satış yönlü müdaxilələr etmişdir.

**Maliyyə sistemi və maliyyə bazarları.** 2015-ci ildə sığorta bazarı üzrə daxilolmaların həcmi 443 milyon manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq

dövrü ilə müqayisədə 3.2 faiz çoxdur. Bütövlükdə sığorta ödənişlərinin həcmi 180 milyon manata bərabər olmuşdur və bu dinamika sığorta bazarında əhəmiyyətli həcmdə sərbəst vəsaitin akkumulyasiya olunmasına imkan yaratmışdır. 2015-ci ilin sonuna bank sisteminin kredit portfelinin

**Qrafik 8.** Bank sisteminin kredit portfeli




*Mənbə: Mərkəzi Bank*

həcmi 17.1 faiz artaraq 21.7 milyard manat təşkil etmişdir. Ümumilikdə ilin sonuna kredit portfelinin 16 faizi regionların payına düşür və ümumi portfelin 76 faizi uzunmüddətli kreditlərdir. Kredit portfelinin 41 faizi ev təsərrüfatları, 59 faizi isə biznes sektoruna aiddir. 2015-ci ildə repo və əks-repo əməliyyatları da daxil olmaqla, ilkin və təkrar bazarda yerləşdirilmiş Mərkəzi Bankın not portfelinin və Maliyyə Nazirliyinin Dövlət İstiqrazlarının həcmi 144.5 milyon manat təşkil etmişdir. Korporativ qiymətli kağız və səhm bazarının həcmi isə 4,2 milyard manata bərabər olmuşdur. Ümumilikdə, törəmə qiymətli kağızları da daxil olmaqla bütün fond bazarında ticarət dövriyyəsinin həcmi 10,5 milyard manatdan çox olmuşdur ki, bu da ÜDM-in 19 faizinə bərabərdir.

**Əsas siyasət dəyişikliyi.** 2015-ci ildə ölkə prezidentinin müvafiq fərman və sərəncamlarına uyğun olaraq həm iqtisadiyyatın diversifikasiyası, həm də biznes mühitinin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi ilə əlaqədar tədbirlər davam etdirilmişdir. 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması ilə əlaqədar olaraq əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin ixrac potensialının artırılması istiqamətində ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatlarının təşkilinə başlanılmışdır. Sənayeləşmə siyasəti çərçivəsində müvafiq Dövlət Proqramına uyğun olaraq, il ərzində müasir sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilmişdir. Dərman vasitələri bazarının tənzimlənməsi barədə ölkə prezidentinin verdiyi tapşırığın icrası olaraq, bir sıra qabaqcıl ölkələrin təcrübəsi əsasında təkmilləşdirilmiş metodologiya hazırlanmış və 3540-dək, yəni dövlət qeydiyyatına alınmış dərman vasitələrinin 40 faizdən çoxunun qiyməti təsdiq edilmişdir. İndiyədək qiymətləri tənzimlənmiş dərman vasitələrinin 46%-nin qiyməti satışda olan qiymətləri ilə müqayisədə 2 dəfədən çox, 24%-nin qiyməti 3 dəfədən çox aşağı salınmış, ümumilikdə isə 95%-nin qiymətləri endirilmişdir. İslahat vətəndaşların xərclərinin azalmasına, dərman vasitələri bazarına dövlət nəzarətinin güclənməsinə və vergidən yayınma hallarının qarşısının alınmasına

əlavə imkanlar yaradacaq, dövlət büdcəsinin xərcləri azalacaq, bu sahədə sığorta sisteminin inkişafına töhfə verəcəkdir. Proses dövlət qeydiyyatına alınmış bütün dərman vasitələrinin qiymətləri tənzimlənənədək intensiv davam etdirilir. 2015-ci ilin sonlarında ölkə başçısının müvafiq fərmanına uyğun olaraq bəzi iqtisadi fəaliyyət növləri ilə məşğul olmaq üçün lisenziyanın verilməsinin yeni qaydaları təsdiq edilmişdir. Əvvəllər 59 fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziya alınması tələb olunurdusa, Fərmana əsasən lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 37-dək azaldılmışdır. Lisenziyalar artıq müddətsiz veriləcək, lisenziya verilməsinə görə ödənilməli olan mövcud dövlət rüsumlarının məbləği iki dəfə azaldılmışdır. Bank sisteminin restrukturizasiyası çərçivəsində mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan Prezidentinin 15 iyul 2015-ci il tarixli Fərmanı ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırma tədbirləri müəyyənləşdirilmişdir. Fərmanın icrası çərçivəsində bankın problemli aktivlərinin "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatına ("Aqrarkredit" QSC) ötürülməsi təmin edilmişdir.

**İlin sonuna proqnoz və gözləntilər.** Bir sıra beynəlxalq təşkilatlar 2016-ci ildə ölkədə iqtisadi artımın davam edəcəyini gözləyirlər. Dünya Bankının "Qlobal İqtisadi Perspektivlər" iqtisadi xülasəsinə əsasən, Azərbaycanda 2016-cı ilin sonunda 0.8 faizlik iqtisadi artım gözlənilir. Dünya Bankının dəyərləndirmələrinə əsasən, neft qiymətinin düşməsi nəticəsində yaranan zəif iqtisadi aktivlik başlıca olaraq struktur islahatları, iqtisadiyyatın şaxələndirilməsi, resursların səmərəli bölüşdürülməsi, güclü korporativ idarəetmə və qeyri-neft sektoruna qoyulan investisiyaların artması hesabına kompensasiya ediləcək. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı 2015-2016" hesabatına əsasən, Azərbaycan rəqabətə davamlılıq reytinqində 140 ölkə arasında 40-cı (MDB ölkələri arasında 1-ci) yerdə qərarlaşmışdır. "Fitch Ratings"-in son hesabatında beynəlxalq reytinq agentliyi Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqini "BBB-" investisiya səviyyəsində bir daha təsdiq edərək proqnozu "sabit" saxlamışdır. Ancaq "Standard and Poor's" və "Moody's" reytinq agentlikləri Azərbaycanın beynəlxalq kredit reytinqini 1 pillə endirərək, müvafiq olaraq "BB+" və "Ba1" səviyyəsinə salıblar. Moody's 2016-cı ildə Azərbaycan iqtisadiyyatının 0.7%, 2017-ci ildə isə 1.0% artacağını gözləyir. Reytinqin endirilməsinə əsas səbəb neftin ucuzlaşmasının Azərbaycan üçün, o cümlədən ölkənin maliyyə sabitliyi üçün mənfi nəticələrə səbəb olmasıdır. Digər tərəfdən isə ucuz neft iqtisadi inkişafı ləngidib, büdcə üçün problemlər yaradıb, ölkənin ödəniş balansına mənfi təsir edib. Mərkəzi Bankın ən son bəyanatında deyilir ki, orta müddətli dövrdə milli iqtisadiyyatın "yenidən balanslaşdırılması," özəl

investisiyalara və ixraca arxalanan iqtisadi artım modelinə ("təklif iqtisadiyyatı") keçidin sürətlənməsi və bu əsasda daha dayanıqlı və şaxələndirilmiş iqtisadi artımın təmin edilməsi iqtisadi siyasət qarşısında duran strateji çağırışdır. Bu çağırışa uyğun olaraq milli iqtisadiyyatın yeni makroiqtisadi dayanıqlıq müstəvisinə keçirilməsi, bu əsasda iqtisadi siyasətin bütün istiqamətlərinin daha effektiv sinxronlaşdırılması vasitəsilə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində Mərkəzi Bank hökumətlə birlikdə kompleks tədbirlər həyata keçirəcəkdir.

Əlavə 1. Makroiqtisadi və maliyyə göstəriciləri

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **I. Sosial iqtisadi göstəricilər və İnflyasiya** | | | | | |
| Ümumi Daxili Məhsul, mln AZN | 52082 | 54744 | 57708 | 58978 | 54352 |
| *Qeyri-neft sektorunun payı, %* | *43%* | *48%* | *57%* | *61%* | *69%* |
| İqtisadi artım, % | 0.1 | 2.2 | 5.8 | 2.8 | 1.1 |
| *Neft sektoru, %* | *-9.8* | *-5.0* | *1.0* | *-2.9* | *0.6* |
| *Qeyri-neft sektoru, %* | *9.4* | *9.6* | *10.0* | *7.0* | *1.1* |
| Adambaşına ÜDM, AZN | 7003 | 7491 | 7913 | 7986 | 5704 |
| İnflyasiya _ orta illik | 7.9 | 1.1 | 2.4 | 1.4 | 4.0 |
| Orta aylıq əmək haqqı, AZN | 357 | 396 | 419 | 442 | 462 |
| İşsizlik, % | 5.4 | 5.2 | 5.0 | 5.0 | - |
| Yoxsulluq səviyyəsi, % | 7.6 | 6.0 | 5.3 | 5.0 | - |
| **II. İnvestisiyalar və Dövlət Büdcəsi** | | | | | |
| Cəmi investisiya qoyuluşu, mln AZN | 12799 | 15407 | 17872 | 17616 | 15957 |
| *daxili investisiya* | *10199* | *12148* | *13705* | *12735* | *8937* |
| *xarici investisiya* | *2600* | *3259* | *4167* | *4881* | *7020* |
| Qeyri-neft sektoruna investisiya, mln AZN | 9729 | 11553 | 13047 | 11652 | 8796 |
| Büdcə gəlirləri, mln AZN | 15701 | 17282 | 19495 | 18401 | 17153 |
| *ÜDM-ə nisbəti, %* | *30%* | *32%* | *34%* | *31%* | *32%* |
| Büdcə xərcləri, mln AZN | 15398 | 17417 | 19144 | 18699 | 17787 |
| *ÜDM-ə nisbəti, %* | *30%* | *32%* | *33%* | *32%* | *33%* |
| **III. Xarici Sektor və Monetar Göstəricilər** | | | | | |
| Mal ixracı, mln $ | 24328 | 22217 | 23975 | 21829 | 11424 |
| *ondan, qeyri-neft mal ixracı* | 1624 | 1934 | 1821 | 1754 | 1606 |
| Mal idxalı, mln $ | 10166 | 10417 | 10710 | 9188 | 9221 |
| Azeri Light markalı neftin orta qiyməti, $/barel | 113.7 | 113.4 | 110.6 | 100.9 | 53.8 |
| Strateji valyuta ehtiyatlarının həcmi, mlrd. $ | 40.6 | 46.1 | 50.2 | 51.1 | 38.6 |
| AZN / $ (dövri orta) | 0.7897 | 0.7856 | 0.7845 | 0.7844 | 1.0261 |
| Xarici dövlət borcu, mln $ | 4817 | 5708 | 6059 | 6381 | 6894 |
| Pul bazası, mln AZN | 8275 | 10515 | 11642 | 11542 | 6902 |
| M2 pul aqreqatı, mln AZN | 10997 | 13806 | 16435 | 17436 | 8613 |
| Bankların aktivləri, mln AZN | 13947 | 16530 | 20385 | 25183 | 34906 |
| *ÜDM-ə nisbəti, %* | *27%* | *30%* | *35%* | *43%* | *64%* |
| Kredit portfeli, mln AZN | 9850 | 12244 | 15423 | 18543 | 21718 |
| *ondan ev təsərrüfatlarına* | *3315* | *4317* | 6215 | *7732* | *8384* |
| Depozit və əmanətlər, mln AZN | 9447 | 10699 | 12476 | 15453 | 23463 |
| *ondan ev təsərrüfatlarının* | *4120* | *5113* | 6396 | *7188* | *9474* |
| Depozit/Kredit, % | 96% | 87% | 81% | 83% | 108% |
| Xalis mənfəət (vergilər çıxılmadan), mln AZN | -152 | 170 | 341 | 459 | - |
| ROA, % | -1.2 | 0.9 | 1.5 | 1.7 | - |
| ROE, % | -8.9 | 7.1 | 11.7 | 11.6 | - |
| Kapital adekvatlığı, % | 14.7 | 16.9 | 18.1 | 19.2 | 17.8 |

Mənbə: Dövlət Statistika Komitəsi, Maliyyə Nazirliyi, Mərkəzi Bank

Əlavə 2. Bəzi sənaye mallarının istehsalı

| | 2015-ci ildə istehsal | İllik artım tempi, % |
|---|---|---|
| Xam neft, min ton | 41605.9 | 99.3 |
| Təbii qaz, milyon kub metr | 19720.5 | 105.5 |
| Dəmir filizi, min ton | 127.6 | 139.6 |
| Qızıl, kq | 2229.3 | 119.1 |
| Gümüş, kq | 137.9 | 57.6 |
| Ət, min ton | 254.1 | 100.8 |
| Kolbasa məmulatları, ton | 2105.9 | 114.2 |
| Üzlü süd, min ton | 857.4 | 102.2 |
| Qaymaq və xama, ton | 4698.4 | 101.0 |
| Pendir və kəsmik, min ton | 48.5 | 100.8 |
| Kərə yağı, min ton | 23.7 | 102.6 |
| Bitki yağları, min ton | 67.5 | 103.2 |
| Qənd və şəkər tozu, min ton | 330.3 | 80.6 |
| Üzüm şərabı, min dkl | 821.4 | 88.8 |
| Pivə, min dkl | 4276.3 | 83.3 |
| Alkoqolsuz içkilər, min dkl | 24518.3 | 89.6 |
| Papiros və siqaretlər, milyon ədəd | 1979.4 | 98.3 |
| Pambıq lifi, ton | 6332.9 | 47.4 |
| Dəri, min kv.m. | 841.9 | 69.9 |
| Üstü dəridən olan ayaqqabılar, min cüt | 67.0 | 95.4 |
| Propilen, min ton | 45.5 | 96.6 |
| Polietilen, min ton | 103.5 | 102.4 |
| Plastik polietilen borular, ton | 12404.4 | 68.0 |
| Sement, min ton | 2938.1 | 102.4 |
| Tikinti gipsi, min ton | 129.4 | 114.5 |
| Betondan konstruksiyalar, min kub m | 22.2 | 65.9 |
| Asfalt, min ton | 474.7 | 117.9 |
| Tikinti kərpici, min kub metr | 264.3 | 89.7 |
| Çuqun tökmə, ton | 1132.7 | 79.2 |
| Polad tökmə, min ton | 302.2 | 93.2 |
| Güc transformatorları, ədəd | 756 | 4.6d. |
| Məişət soyuducuları, ədəd | 2794 | 76.2 |
| Televizorlar, ədəd | 788 | 13.0 |
| Traktorlar, ədəd | 955 | 75.5 |
| Yük avtomobilləri, ədəd | 385 | 135.6 |
| Minik avtomobilləri, ədəd | 728 | 39.1 |

Mənbə: Dövlət Statistika Komitəsi

## MƏXFİLİK BİLDİRİŞİ

Bu Hesabat ("Hesabat") "PAŞA Bank" ASC tərəfindən (hər hansı məsul şəxsi, direktoru, işçisi, müşaviri ilə birlikdə, yəni "Tərtibatçılar"la birlikdə) hazırlanmışdır və tədqiqat daxili istifadəçilər, eyni zamanda Bankın sektorda təmsil olunan bəzi korporativ müştəriləri və potensial investorlar üçün nəzərdə tutulur.

Bu Hesabat ünvanlandığı şəxslərin xüsusi istifadəsi üçündür.

Bu Hesabat və burada əks olunan məlumatlar məxfidir. Hesabatı qəbul etməklə, məlumat alıcısının "PAŞA Bank" ASC ilə birgə öhdəsinə götürdüyü hər hansı məxfilik öhdəliyi şərtlərinə əlavə olaraq, bu hesabatla hər bir məlumat alıcısı istənilən vaxt "PAŞA Bank" ASC-nin ilkin yazılı razılığı olmadan, bu Hesabatın tam və ya qismən surətini çıxarmayacağı, təkrar hazırlamayacağı və ya başqalarına yaymayacağını, onun vasitəçiləri, nümayəndələri, müşavirləri, direktorları və ya işçilərindən hər birinin (birlikdə "Nümayəndələr") yuxarıda sadalananları etməyəcəyini təmin edəcəyi və hər hansı üçüncü tərəfin də yuxarıda sadalananları etməsinə yol verməyəcəyi ilə və bu Hesabatda əksini tapan və ictimai məlum olmayan bütün məlumatları məxfi saxlayacağı, bu Hesabatdan yalnız hesabatda qeyd olunan müvafiq biznes fəaliyyətləri ilə bağlı müəyyən məhdud ümumi məlumatların müəyyən edilməsi (tanışlıq) məqsədləri üçün istifadə edəcəyi ilə razılaşır. Bu Hesabat hər hansı sərmayə qərarı üçün əsas kimi xidmət göstərmək məqsədi ilə hazırlanmamışdır və belə qərarlar sərmayəçinin öz mülahizəsi əsasında verilməlidir. Əgər məlumat alıcısı "PAŞA Bank" ASC qarşısında məxfilik öhdəliyini daşıyırsa, bu Hesabat da belə öhdəlik çərçivəsində Məxfi məlumat təşkil edir.

Tərtibatçılar, qanunla yol verilən həddə, bu Hesabatda göstərilmiş və ya ifadə olunmuş, bura daxil edilmiş təminatlara və ya zəmanətlərə və ya bu Hesabatdan yayınmalara görə və ya bu Hesabatla bağlı olaraq, hər hansı maraqlı tərəfə ötürülmüş hər hansı digər yazılı və ya şifahi məlumata görə hər hansı və ya bütün məsuliyyətdən azaddır.

Xüsusilə, lakin bununla məhdudlaşmayaraq, bu Hesabatda əksini tapan və öz təbiətinə əsasən bir sıra riskləri, qeyri-müəyyənlikləri və ya ehtimalları ehtiva edən və bu Hesabatda göstərilən və ya nəzərdə tutulanlardan fərqli real nəticələr və ya hadisələr yarada bilən istənilən fərziyyələr, gözləntilər, proqnozlar, təhlillər və gələcəyə yönəlmiş bəyanatların əldə oluna bilən olmasına və ya məntiqiliyinə heç bir təminat və ya zəmanət verilmir və onlara əsaslanılmamalıdır.

Hər bir məlumat alıcısı bununla qəbul edir ki, Tərtibatçılardan heç birinin bu Hesabatdakı hər hansı bəyanata və ya bu Hesabatdan yayınmaya və ya bununla bağlı olaraq, təqdim olunmuş digər məlumatlara etibar etməyin nəticəsi olaraq, hər hansı bir şəxs tərəfindən dəyən hər hansı birbaşa, bilavasitə və ya əlavə itki və ya ziyana görə məsuliyyət daşımayacağı və hər hansı belə məsuliyyətin qəti şəkildə rədd olunacağı ilə razılaşır.

Başqa cür şərtləndirildiyi hallar istisna olmaqla, bu Hesabat onun razılaşdırıldığı tarixdə mövcud olan məlumatları təqdim edir. Bu Hesabatı təqdim etməklə, Tərtibatçılar istənilən zaman bu Hesabatı dəyişmək və ya əvəz etmək hüququna malikdirlər və Hesabata daxil olan hər hansı məlumatın yenilənməsi və ya məlum olan hər hansı uyğunsuzluqları düzəltmək öhdəliyini üzərilərinə götürmürlər.

Bu Hesabat "PAŞA Bank" ASC-in əmlakı olaraq qalacaqdır.

## ƏLAQƏ ÜÇÜN MƏLUMAT

PAŞA Bank

Strategiya Departamenti

Tel: +994 12 496 50 00

Email: Economic.Research@pashabank.az